http://iqtisadiforum.blogspot.com/2020/08/bahalasmaya-baxmayaraq-yeyinti.html

**21 Avqust 2020**

# Bahalaşmaya baxmayaraq yeyinti məhsullarının idxalı artır



Azərbaycanda 2020-ci ildə yeyinti məhsullarının idxalında artım müşahidə edilir. Dövlət Gömrük Komitəsinin yanvar-iyul aylarına aid olan məlumatına əsasən, yeyinti məhsullarının idxal dəyəri 884 milyon dolları ötüb ki, bu da 2019-cu ilin eyni dövrü ilə müqayisədə 28 milyon dollar və ya 3,3 faiz çoxdur.

Yeyinti məhsullarında idxalın artması daxildə pərakəndə ticarət dövriyyəsinin azalması fonunda baş verir. Bu il pərakəndə ticarətin azalmasına ictimai iaşə dövriyyəsinin və xarici turist səfərlərinin azalması da təsir edib.

Bəs, belə bir vəziyyətdə yeyinti məhsullarının idxalını artıran səbəblər nədir?

Aqrar sahə üzrə ekspert Vahid Məhərrəmov yeyinti məhsullarının idxalının artmasını xaricdə bəzi kənd təsərrüfatı mallarının bahalaşması, eyni zamanda daxildə istehsalın azalması ilə izah etdi.

Ekspert söylədi ki, idxal edilən məhsulların miqdarı ilə bərabər onların dəyəri də artıb: "Keçən ilin yanvar-iyul dövrü ilə müqayisədə idxal edilən ət 18 faiz, diri heyvanlar 34 faiz, süd 31 faiz, meyvə-tərəvəz 2 faizə yaxın, heyvan mənşəli yağlar 15 faiz, çay, buğda, düyü bahalaşıb, kərə yağının qiyməti dəyişməyib.

Əgər xaricdə qiymətlər artıbsa və sahibkarlar tərəfindən yüksək qiymətə mallar idxal edilirsə, deməli, daxildə ona tələbat var. Tələbat onunla bağlıdır ki, daxildə istehsal yetərli deyil, ən azından ötənilki səviyyədə deyil.

Gömrük statistikası göstərir ki, fiziki çəkidə də artım var. Fiziki çəkidə idxalda artım süddə 24,5 faiz, kərə yağında 37,6 faiz, meyvə-tərəvəzdə 9 faiz, çayda 14 faiz, bitki və heyvan mənşəli yağlarda 4 faiz, düyüdə 47 faiz qeydə alınıb. Bu məlumatlar ondan

xəbər verir ki, ölkədə tələbat yaranıb və yaranan tələbatı qiymətlərin yüksək olmasına baxmayaraq idxal hesabına ödənilib".

V.Məhərrəmov qeyd etdi ki, 2020-ci ilin yanvar-iyul ayları ərzində ölkəyə gələn xarici turistlərin sayı 2019-cu ilin eyni dövrünə nisbətən 1 milyon nəfərə yaxın azalıb. Onun fikrincə, turist sayında kəskin azalma idxal mallarına olan tələbi də azaltmalı idi. Turistlərin sayının azalmasına baxmayaraq idxalın artması ekspertin qənaətincə daxili tələbatın artmasından qaynaqlanır: "İdxal mallarına tələbin artması daxili istehsalın azalması ilə bağlıdır. Hökumət 2020-ci ildə buğda istehsalının azaldığını etiraf etmək istəmirdi. Taxıl istehsalı ilə bağlı mən bir neçə araşdırma apardım və həmin araşdırmaları dərc etdim. Araşdırma zamanı əkin sahələrində çəkilən fotolar da təqdim edilmişdi. Araşdırma zamanı üzə çıxdı ki, respublikanın əksər bölgələrində taxıl əkini həyata keçirilsə də bitki birinci 3-4 ayında məhv olub. Çünki arotexniki qaydalara əməl edilməyib.

Bu araşdırmalardan sonra etiraf olundu ki, Azərbaycanda buğda istehsalı azalıb. Bundan sonra məhv olan sahələrin statistikası aparılmır. Əvvəl deyirdilər ki, bu il 1,01 milyon hektarda taxıl əkini həyata keçirilib, indi isə əkinin 946 min hektarda aparıldığı deyilir. Əkin həyata keçirilməsi haqqında nazir açıqlama verib, Dövlət Statistika Komitəsi məlumat verib, amma buna baxmayaraq taxıl əkilən sahə azaldılır ki, məhsuldarlıq yüksək göstərilsin. Statistika Komitəsi niyə manipulyasiyaya yol verməlidir ki? Bu, sonradan mala və məhsula çəkilən xərcin hesablanması, rentabelliyinin səviyyəsinin müəyyən edilməsi məsələsində problem yaradır.

Buğda istehsalının azalması quraqlıqla əlaqələndirilir. Ancaq quraqlığın taxıl istehsalına bir o qədər də təsiri olmur. Quraqlıq tərəvəz və digər bitkilərə təsir edir. Ona görə ki, tərəvəz bitkilərinin suya tələbatı çox olur, nəinki taxılın.

İlin yekununda görəcəyik ki, başqa məhsulların istehsalı nə qədərdir. Amma indidən deyə bilərik ki, idxal mallarının bahalaşması fonunda onlara tələb varsa, deməli yerli istehsalın azalması prosesi gedib. Baha məhsulların idxal edilməsi ölkə daxilində ərzaq mallarının qiymətlərin yüksəlməsinə də səbəb olub".